**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 256/3** **5 noyabr 2014-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında «Beynəlxalq əlaqələr üzrə Komitənin Əsasnaməsi»nin layihəsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2014-cü il 10 sentyabr tarixli 254/1 saylı «Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında yeni komitələrin yaradılması» haqqında qərarına müvafiq olaraq Azərbaycan Respublikasında Auditor xidmətinin inkişaf Konsepsiyasında həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin icrasının Təqvim Planının «Auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin institusional potensialının gücləndirilməsi üzrə» II bölməsinin 6-cı «Auditin idarə edilməsi və tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi» və 12-ci «Auditor xidmətinin inkişafında və tənzimlənməsində Auditorlar Palatasının Şurası yanında Komitələrin rolunun gücləndirilməsi» bəndlərinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** «Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Beynəlxalq əlaqələr üzrə Komitənin Əsasnaməsi» təsdiq edilsin (əlavə olunur).
**2.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Beynəlxalq əlaqələr üzrə Komitənin rəhbərliyinə (L.Bayramova, S.Məmmədov) tapşırılsın ki, həmin Əsasnaməyə müvafiq olaraq Komitənin işini təşkil etsinlər və Komitənin funksiyalarını həyata keçirmək üçün tədbirlər görsünlər.
**3.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Beynəlxalq əlaqələr üzrə Komitənin rəhbərliyinə (L.Bayramova, S.Məmmədov) və Komitənin işinə Palata tərəfindən təhkim olunmuş S.Məmmədzadəyə tapşırılsın ki, Komitənin 2014-2015-ci illər üzrə iş planının layihəsini 1 dekabr tarixinədək təqdim etsinlər.

**4.** Bu qərarın və təsdiq edilmiş Əsasnamənin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**